**Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən 2022-ci il ərzində beynəlxalq əməkdaşlıq sahəsində görülmüş işlər barədə**

# H E S A B A T

2022-ci il ərzində Xidmətin fəaliyyət istiqamətlərinə uyğun olaraq ikitərəfli əməkdaşlığın inkişaf etdirilməsi, xarici dövlətlərin aidiyyəti qurumları ilə əməkdaşlıq sənədlərinin razılaşdırılması, beynəlxalq və regional iqtisadi təşkilatlarla əlaqələr və beynəlxalq təcrübənin təşviqi sahəsində müvafiq işlər həyata keçirilmişdir.

Azərbaycan Respublikası və Ukrayna Prezidentlərinin iştirakı ilə 14.01.2022-ci il tarixində Kiyev şəhərində "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Ukraynanın Geodeziya, Xəritəçəkmə və Kadastr üzrə Dövlət Xidməti arasında torpaq münasibətləri, dövlət torpaqlarının idarəedilməsi və dövlət torpaq kadastrı sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu" imzalanmışdır.

Azərbaycan Respublikası ilə Ukrayna arasında iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın on ikinci iclas Protokolunun 2.12-ci bəndinin icrası çərçivəsində özəlləşdirmə məsələləri ilə bağlı qarşılıqlı dəstəyin göstərilməsi üzrə hər iki tərəfin həmsədrliyi ilə İşçi Qrupu yaradılmışdır. İşçi Qrupunun fəaliyyəti çərçivəsində ƏMDX ilə Ukraynanın Dövlət Əmlak Fondunun aidiyyəti əməkdaşlarının iştirakı ilə videokonfrans formatında 7 və 21 noyabr 2022-ci il tarixlərində onlayn görüşlər keçirilmişdir.

"Azərbaycan Respublikası Hökuməti ilə Tacikistan Respublikası Hökuməti arasında yerquruluşu, torpaq münasibətləri, kadastr, geodeziya, kartoqrafiya, Yerin məsafədən zondlanması və coğrafi informasiya sistemləri sahələrində əməkdaşlıq haqqında Saziş"in imzalanması ilə bağlı zəruri prosedurlar həyata keçirilmişdir. Saziş layihəsi qarşı tərəflə razılaşdırılmış və Azərbaycan və rus dillərindəki mətnlərinin autentikliyi Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi tərəfindən təmin edilmişdir. Sazişin imzalanması səlahiyyətinin verilməsi ilə bağlı bütün prosedurlar yerinə yetirilmişdir.

07.02.2022-ci il tarixində Gürcüstanın Dövlət Qeydiyyatı üzrə Milli Agentliyi ilə keçirilmiş onlayn görüşdə "Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə Gürcüstanın Ədliyyə Nazirliyi arasında Daşınmaz əmlak hüquqlarının qeydiyyatı və kadastr fəaliyyəti sahəsində əməkdaşlıq haqqında Memorandum" layihəsi razılaşdırılmış, daha sonra sənədin imzalanması məqsədilə müvafiq dövlətdaxili prosedurlar həyata keçirilmişdir. Memorandumun gələcəkdə baş tutacaq səfər çərçivəsində imzalanması nəzərdə tutulur.

Özbəkistan Respublikasının Dövlət Vergi Komitəsi yanında Kadastr Agentliyinin torpaq idarəçiliyi, torpaqların rəsmiləşdirilməsi, torpaq idarəçiliyində informasiya sistemləri, ölkə daxilində vətəndaşlara xidmətlərin göstərilməsi, eləcə də torpaq idarəçiliyi ilə bağlı dövlət xidmətləri sahələrində əməkdaşlığın inkişaf etdirilməsi və təcrübə mübadiləsinin həyata keçirilməsinə dair müraciəti əsasında qarşı tərəflə danışıqlar aparılmış, təcrübə və məlumat mübadiləsinin həyata keçirilməsi məqsədilə hər iki tərəfin mütəxəssislərindən ibarət işçi qrup yaradılmışdır.

"Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə İsrail Dövlətinin Torpaq Qurumu arasında torpaq münasibətləri, dövlət torpaqlarının idarə edilməsi və qeydiyyatı

sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu” və “Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi ilə İsrail Dövlətinin İnşaat və Mənzil Təsərrüfatı Nazirliyi arasında daşınmaz əmlakın dövlət kadastrının aparılması, coğrafi informasiya sistemlərinin yaradılması və idarə edilməsi və sahəvi geodeziya fəaliyyəti sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu”nun layihələri qarşı tərəfə çatdırılmışdır. Sənəd layihələrinin razılaşdırlması istiqamətində işçi qaydada danışıqlar aparılmışdır.

Eyni zamanda, Azərbaycan Respublikası ilə Avstriya Respublikası, Türkmənistan, İsveçrə Krallığı, ABŞ, Çin Xalq Respublikası, Səudiyyə Ərəbistanı, Litva Respublikası, Özbəkistan Respublikası, Türkiyə Respublikası, Moldova, Rusiya Federasiyası, İsveçrə Federal Şurası, Pakistan İslam Respublikası Gürcüstan arasında Hökumətlərarası Komissiyaların iclas Protokollarının icra vəziyyəti barədə müvafiq məlumatlar, eləcə də bir sıra Komissiyaların iclas protokollarının layihələrinə dair rəy və təkliflər hazırlanaraq aidiyyəti üzrə təqdim edilmişdir. Bununla yanaşı, birgə komissiyalar çərçivəsində qarşı tərəflərlə 2022-ci ildə görülmüş işlər, eləcə də 2023-ci ildə görüləcək işlərlə bağlı Azərbaycan tərəfinin fəaliyyət planlarının hazırlanması məqsədilə təkliflər hazırlanaraq təqdim edilmişdir.

11-18 sentyabr 2022-ci il tarixində Fransa Respublikasının Paris şəhərində Milli Dövlət Xidməti İnstitutu tərəfindən dövlət məmurları üçün təşkil edilmiş təlimdə, 20 oktyabr 2022-ci il tarixlərində Ombudsmanların və Milli İnsan Hüquqları Təsisatlarının (MİHT) Bakı Beynəlxalq Konfransında, daha Effektiv İqtisadi İslahatlar üçün Biliklərin İdarə Edilməsinin Gücləndirilməsi” bilik və dəstək texniki yardım layihəsi ilə əlaqədar 13.10.2022-ci il tarixində keçirilmiş seminarda şöbə əməkdaşları iştirak etmişdir.

Cari ilin 6 oktyabr tarixində Litvanın Dövlət Müəssisəsinin Reyestrlər Mərkəzi və 11 oktyabr tarixində Niderlandın Daşınmaz Əmlakın Qiymətləndirilməsi üzrə Şurası ilə onlayn görüşlər keçirilmişdir. Görüşlərdə qarşı tərəflərin daşınmaz əmlakın qiymətləndirilməsi sahəsində məlumat və təcrübə mübadiləsi aparılmış, ƏMDX-nin fəaliyyət istiqamətləri ilə bağlı məlumatlar təqdim edilmişdir. Litvanın bu sahədə təcrübəsinin daha yaxından öyrənilməsi çərçivəsində işlərin davam etdirilməsi məqsədilə sözügedən ölkəyə səfərin təşkili nəzərdə tutulmuşdur.

“Hərbi münaqişələr zamanı mədəni dəyərlərin qorunması haqqında Konvensiya"nın müddəalarının yerinə yetirilməsi ilə bağlı Tədbirlər Planının icra vəziyyəti barədə, eləcə də Azərbaycan-Almaniya ticarət və investisiyalar üzrə yüksək səviyyəli İşçi Qrupunun 9-cu iclası çərçivəsində müzakirə oluna biləcək mövzular barədə məlumatlar hazırlanaraq aidiyyəti üzrə təqdim edilmişdir.

“MDB iştirakçı dövlətlərinin geodeziya, xəritəçəkmə, kadastr və Yerin məsafədən zondla tədqiq edilməsi sahəsində qarşılıqlı fəaliyyəti haqqında 9 oktyabr 1992-ci il tarixli Sazişə dəyişikliklərin edilməsi haqqında Protokol”un qüvvəyə minməsi məqsədilə qanun layihəsi hazırlanaraq Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edilmişdir.

24.11.2022-ci il tarixində MDB-nin Geodeziya, xəritəçəkmə, kadastr və Yerin məsafədən zondla tədqiq edilməsi üzrə Katibliyin və Dövlətlərarası Şuranın işçi qruplarının rəhbərlərinin iclasında Xidmət əməkdaşının müşahidəçi qismində iştirakı təmin edilmişdir.

Azərbaycan Respublikası ilə Almaniya Federativ Respublikası arasında birgə əməkdaşlıqdan irəli gələrək “Dövlət əmlakının idarə olunması və özəlləşdirilməsinə məsləhət xidməti” texniki yardım layihəsi çərçivəsində İqtisadiyyat Nazirliyi yanında

Əmlak Məsələləri Dövlət Xidməti ilə Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti (GIZ) və Berlin Economics-in mütəxəssisləri arasında 06.05.2022-ci il tarixində onlayn görüş keçirilmişdir.

1-3 iyun 2022-ci il tarixlərində GIZ-in təşkilatçılığı ilə Xidmət əməkdaşları Gürcüstanın Tbilisi şəhərində səfərdə olmuşdur. Səfər zamanı Berlin Economics-in mütəxəssisləri, Əmlak Məsələləri Dövlət Xidməti və Gürcüstanın Dövlət Əmlakı Milli Agentliyinin əməkdaşları arasında üçtərəfli görüş keçirilmişdir. Görüş zamanı "Yeni özəlləşdirmə strategiyası"nın hazırlanmasına dəstək verilməsi üçün müzakirələr aparılmışdır.

28.07.2022-ci il tarixində Azərbaycan, Gürcüstan və Berlin Economics-in mütəxəssisləri arasında özəlləşdirmə sahəsində növbəti onlayn görüş keçirilmişdir. Görüş zamanı, tərəflər üçün zəruri olan sahələr üzrə fikir mübadiləsi həyata keçirilmiş, Azərbaycan nümayəndələri tərəfindən "Yeni özəlləşdirmə strategiyası"nın hazırlanmasında beynəlxalq təcrübənin əhəmiyyətli olacağı alman ekspertlərin diqqətinə çatdırılmışdır. Bu məqsədlə ƏMDX üçün sözügedən startegiyasıın hazırlanması üçün zəruri məlumatlar hazırlanaraq qarşı tərəfə təqdim edilmişdir.

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) İstanbul şəhərində yaradılmış Mərkəzlə bağlı Xarici İşlər Nazirliyinin təklifləri nəzərə alınaraq OECD-nin İstanbul Mərkəzi ilə mümkün əməkdaşlıq istiqamətində aidiyyəti təkliflər hazırlanaraq təqdim edilmişdir.

1-3 fevral 2022-ci il tarixlərində "Biznesin Yenidən Təşkilinin Qiymətləndirilməsi" üzrə hesabata dair Avropa Yenidənqurma və İnkişaf Bankı tərəfindən virtual formatda təşkil olunmuş görüşlərdə Xidmətin fəaliyyət istiqamətlərinə uyğun aidiyyəti şöbələrin əməkdaşlarının iştirakı təmin edilmişdir. Bununla yanaşı, 22 iyul tarixində Xidmət əməkdaşları ilə Asiya İnkişaf Bankının nümayəndələri arasında Xidmətin fəaliyyət istiqamətlərinə uyğun olaraq potensial qrant layihənin müəyyən edilməsi bağlı görüş keçirilmişdir. Görüşdən sonra müvafiq qrant layihə ilə bağlı daşınmaz əmlakların kütləvi qiymətləndirilməsi sisteminin yaradılmasına dəstək mövzusunda təklif hazırlanaraq aidiyyəti üzrə təqdim edilmişdir.

Asiya İnkişaf Bankının "Azərbaycan Dövlət-Özəl Tərəfdaşlığının İnkişafı Mərkəzi və Layihələrin İnkişafı Fondunun dəstəklənməsi" layihəsi çərçivəsində keçirilmiş seminarda şöbə əməkdaşının iştirakı təmin edilmişdir.

Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında yeni Saziş layihəsinin Ticarət hissəsinin "Xidmətlər və təsisatlar" fəsli üzrə daşınmaz əmlakla bağlı nəzərdə tutulan məhdudiyyətlərə dair əsaslandırma hazırlanaraq İqtisadiyyat Nazirliyinə təqdim edilmişdir. Eyni zamanda, "Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında yeni Saziş layihəsi"nin "Digər sazişlərlə əlaqələr" maddəsi ilə bağlı Aİ-yə üzv ölkələrlə mövcud əməkdaşlıq barədə sənədlərin siyahısı hazırlanaraq aidiyyəti üzrə təqdim edilmişdir.

Xarici diplomatik missiyalara təqdim edilməsi məqsədilə hesabat dövrü ərzində iqtisadi sahədə həyata keçirilən islahatlar, o cümlədən iqtisadi siyasətdə və qanunvericilikdə baş verən yeniliklərlə (dəyişikliklərlə) bağlı məlumatlar hazırlanaraq mütəmadi olaraq İqtisadiyyat Nazirliyinə təqdim edilmişdir.

Xidmətin struktur bölmələri, Xidmətin strukturuna daxil olan və tabeliyindəki qurumlar tərəfindən həyata keçirilən fəaliyyətin səmərəliliyinin artırılması məqsədilə ehtiyac duyulan məsələlərlə bağlı xarici təcrübənin öyrənilməsi üzrə lazımı işlər həyata keçirilmiş və hazırlanmış məlumatlar istifadə üçün verilmişdir.